Ədəbiyyat QƏZETİ 27 aprel 2024-cü il 45

# Elxan HÜRRİYYƏT - 70



Hörmətli Elxan müəllim!

Sizi - 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Elxan Hürriyyət (Elxan Məhəmməd oğlu Məmmədzadə) 1954-cü il aprelin 22-də Cəbrayıl rayonunda anadan olub. BDU-nun yurnalistika fakültəsini bitirib. Rayonda nəşr olunan "Xudafərin" keçmiş ("Kolxozçu) qəzetində xüsusi müxbir, redaktor müavini, Dövlət Teleradio verilişləri QSC-də "Xəbərlər" redaksiyasında redaktor vəzifələrində işləmişdir. Qarabağ müharibə veteranıdır.

Şeirləri 1970-80-ci illərdən dövri mətbuatda - "Sosialist Sumqayıtı", "Xudafərin", "Bakı", "Sovet kəndi", "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət", "525-ci qəzet", "Ədəbiyyat naminə", "Kredo" qəzetlərində "Ulduz", "Azərbaycan" jurnallarında, "Səhər şəfəqləri", "Çinar pöhrələri", "Xudafərin nəğmələri" almanaxlarında nəşr olunmuşdur. "Ürəyimdən keçənlər", "Qəlbimin aynası" kitablarının müəllifidir.

Hörmətli Elxan müəllimi bir daha yubileyi münasibətilə təbrik edir, ona uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**